BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Sosial-siyasi elmlər seriyası 2009*

# CİNAYƏT TƏRKİBLƏRİNİN NÖVLƏRİ

**R.A.QASIMZADƏ**
*Bakı Dövlət Universiteti*

Cinayət tərkibləri müxtəlif meyarlar əsasında təsnif olunur. Onların içərisində cinayət tərkiblərinin konkret tərkiblərdə nəzərdə tutulan cinayətlərin ictimai təhlükəlilik dərəcələrinə görə, cinayət tərkibi əlamətlərinin səciyyəsinə görə, habelə cinayətin obyektiv cəhətini nəzərdə tutan tərkib əlamətlərinin quruluşuna görə təsnifinə daha çox rast gəlinir.

Prof. F.Y.Səməndərov cinayətlərin ictimai-təhlükəlilik dərəcəsinə görə qurulan tərkiblərin dörd növünü fərqləndirmişdir: a) əsas tərkiblər; b) məsuliyyəti yüngülləşdirən halı nəzərdə tutan tərkiblər; c) məsuliyyəti ağırlaşdıran halı nəzərdə tutan tərkiblər; ç) məsuliyyəti xüsusilə ağırlaşdıran halı nəzərdə tutan tərkiblər (6, 136).

N.F.Kuznetsova və İ.M.Tyajkova «Cinayət hüququ kursu» kitabında ictimai təhlükəliliyin dərəcəsi və xarakterinə görə cinayət əməllərini əsas tərkiblərə, ağırlaşdırıcı elementli tərkiblərə – tövsifedici tərkiblərə və yüngülləşdirici elementli tərkiblərə – imtiyazlı tərkiblərə təsnif etmişlər (11, 178).

Əsas tərkiblər elə tərkiblərdir ki, onlarda məsuliyyəti yüngülləşdirən və ya ağırlaşdıran hallar nəzərdə tutulmur. Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunu qanunvericilik texnikası nöqteyi-nəzərindən elə qurulmuşdur ki, onun Xüsusi hissəsinin məsuliyyəti ağırlaşdıran halı nəzərdə tutmayan normalarının əksər hissəsinin əsas tərkibləri sayılır (Məsələn, CM-nin 120.1, 144.1, 149.1, 154.1, 177.1 və sair maddələri).

Milli hüquq ədəbiyyatımızda düzgün olaraq göstərilmişdir ki, CM-nin 59 və 61-ci maddələrində nəzərdə tutulmuş yüngülləşdirici və ağırlaşdırıcı hallar sözün geniş mənasında məsuliyyətə müəyyən təsir istiqamətinə malik olan diferensiasiyalaşdırıcı vasitələr sayılır. Yüngülləşdirici və ağırlaşdırıcı hallar cinayət məsuliyyətinə iki cür təsir edir: 1) CM-nin 58-ci maddəsinə əsasən bu hallar sanksiya daxilində cəzanın fərdiləşdirilməsi zamanı nəzərə alınaraq, onun növünə və həddinə öz təsirini göstərir; 2) CM-nin Xüsusi hissəsində əsas tərkiblərə, yaxud da tövsifedici və ya imtiyazlı cinayət tərkiblərinə məsuliyyəti və cəzanı yüngülləşdirən və ya ağırlaşdıran tərkib əlamətləri kimi daxil olur (4, 22-29).

Yüngülləşdirici və ağırlaşdırıcı hallar əsasən əmələ görə müəyyən olunmuş məsuliyyətin mövcud hüdudlar daxilində konkretləşdirilməsinə xidmət edir. İş üzrə məsuliyyəti yüngülləşdirən hallar mövcuddursa, belə hallar məhkəməyə: a) əməlin tövsif edildiyi maddənin sanksiyasına uyğun seçilən cəza növünün aşağı həddinə yaxın həddə cəza təyin etməyə; b) alternativ sanksiyaya malik maddələrlə məsuliyyət həll edilərkən daha yüngül cəza növü seçməyə; c) qanunda nəzərdə tutulduğundan daha yüngül cəza təyin etməyə (maddə 62); şərti məhkum etmə institutunu tətbiq etməyə (maddə 70); təyin edilən

cəzanın nisbətən yüngül rejimli koloniyada çəkilməsini müəyyən etməyə hüquq verir (6, 507).

Beləliklə, məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallar – təqsirkarın şəxsiyyətinə, törədilən cinayətə aid olan və uyğun olaraq cinayət törədənin təhlükəliliyini azaldan, yaxud da artıran, cinayət tərkibindən kənarda qalan, lakin qanunda nəzərdə tutulan müxtəlif hallardır (5, 348–349). Cinayət hüququ nəzəriyyəsində CM-nin Xüsusi hissəsinin ayrı-ayrı normalarında eyni əməlin bir və ya bir neçə növ müxtəlifliyini nəzərdə tutan bu halların tövsifedici, xüsusilə tövsifedici əlamətli və ya imtiyazlı cinayət tərkibləri də adlandırılması da qəbul olunmuşdur.

Məsələn, CM-də ananın yeni doğduğu uşağı qəsdən öldürməsinə (maddə 121), güclü ruhi həyəcan vəziyyətində qəsdən adam öldürməyə (maddə 122), zəruri müdafiə həddini aşmaqla adam öldürməyə (maddə 123) görə məsuliyyət nəzərdə tutan normalarda məsuliyyəti yüngülləşdirən hallar təsbit olunmuşdur. Bu tərkiblərin hər birinin əsasında əsas tərkib olan qəsdən adam öldürmənin (maddə 120.1) tərkib əlamətləri dayanır. Qanunverici orqan birinci halda cinayətin subyektinin xüsusiyyətlərini (təqsirkarın ana olmasını), ikinci halda, əməlin güclü ruhi həyəcan vəziyyətində törədildiyini, üçüncü halda isə, əməlin zəruri müdafiə həddini aşmaqla edilməsi halını səciyyələndirən əlamətləri əsas tərkibə daxil etməklə belə cinayət tərkiblərini yaratmağa nail olur (6, 136).

Həqiqətən, qəsdən adam öldürmə əməlləri göstərilən hallarla bağlı olduqda onların sosial təhlükəliliyi xeyli azalır. Məsələn, güclü ruhi həyəcan vəziyyətində adam öldürmə əməli xeyli dərəcədə cinayətin qurbanının viktim davranışı ilə əlaqəlidir. Belə ki, şəxsiyyətin müəyyən cəhətləri onları ictimai təhlükəli əməlin qurbanına çevirir. Ona görə də, istintaq və məhkəmə orqanlarından cinayət əməlinin törədilməsində zərərçəkmiş şəxsin oynadığı rola, təhrikedici, hüquqa zidd, bəzən isə hətta cinayət xarakterli davranışına lazımi səviyyədə diqqət yetirmələri tələb olunur. Bəzən şəxsi cinayətə onu səciyyələndirən xüsusiyyətlərdən daha çox, zərər çəkmiş şəxsin ehtiyatsız, düşünülməmiş, əxlaqa, hüquqa zidd davranışı vadar edir.

Ona görə də fikrimizcə, törədilmiş hər bir cinayət əməlinin istintaqı zamanı onun viktomoloji tərəfi araşdırma predmeti olmalı, təqsirləndirilən şəxsin əməli ilə yanaşı viktimin davranışına da hərtərəfli, obyektiv hüquqi qiymət verilməlidir. Zərərçəkmiş şəxsin yalnız o davranışı təqsirli hesab edilə bilər ki, o, cinayət hadisəsinin baş verməsinə, hüquq pozuntusunun subyektində ictimai təhlükəli əməli törətməyə iradənin formalaşmasına səbəb olmuş olsun, yaxud onda cinayətkar qəsdin yaranması və həyata keçirilməsində stimulverici elementlər mövcud olsun. Təhrikedici davranış dedikdə, zərərçəkənin ona qarşı ictimai təhlükəli əməlin törədilməsinə gətirib çıxarmış hərəkət və ya hərəkətsizliyi başa düşülür. Zərərçəkmiş şəxsin təhrikedici davranışı ilə ona qarşı törədilmiş ictimai təhlükəli əməl arasında səbəbli əlaqə olmalıdır.

Cinayətin obyektiv cəhətini xarakterizə edən, tərkibə daxil edilən əlamətlərin quruluşuna (kombinasiyasına) görə cinayət tərkiblərinin üç növü fərqləndirilir: a) maddi tərkiblər; b) formal tərkiblər; c) kəsik tərkiblər. F.Y.Səməndərov düzgün olaraq göstərmişdir ki, qeyd olunan adlar altında aparılan bölgü şərti xarakter daşıyır, çünki respublikanın cinayət hüququ cinayətin ancaq maddi anlayışını qəbul edir (6, 138).

Azərbaycan Respublikası CM-nin 14.1-ci maddəsində cinayətin mahiyyəti, məzmunu ifadə olunmaqla maddi anlayışı verilmişdir. Həmin maddəyə əsasən cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) təqsirli olaraq törədilməsi cinayət sayılır. CM-nin 14.2-ci maddəsinə əsasən isə cinayət qanununda nəzərdə tutulmuş hər hansı əməlin əlamətləri formal cəhətdən mövcud olsa da, lakin az əhəmiyyətli olduğuna görə ictimai təhlükəli sayılmayan, yəni şəxsiyyətə, cəmiyyətə və yaxud dövlətə zərər yetirməyən və ya zərər yetirmək təhlükəsi yaratmayan əməl (hərəkət və ya hərəkətsizlik) cinayət hesab edilmir. CM-nin 14.2-ci maddəsinin göstərişi 14.1-ci maddədə cinayətə maddi-hüquqi tərif verilməsini bir daha təsdiq edir. Beləliklə, qanunverici əməllərin kriminallaşdırılmasını, ilk növbədə, onların ictimai təhlükəliliyi ilə əlaqələndirmişdir. Ona görə də cinayət əməlləri hansı quruluşa malik olmalarından asılı olmayaraq maddi əlamətə əsaslanırlar.

İctimai təhlükəlilik əməlin ictimai münasibətlərə zərər yetirən xüsusiyyəti olmaqla, cinayətin təbiətini, mahiyyətini ifadə edən əsas əlaməti sayılır. Cinayətin bu xassəsi öz xarakterinə görə obyektiv və dəyişməzdir, yəni onun mövcud olub-olmaması nə qanunverici orqanın, nə də qanunu tətbiq edən orqanın iradəsindən asılı deyildir. Ona görə də, ictimai təhlükəli hesab olunan əməllərin dairəsi obyektiv olaraq dəyişmiş, dəyişir və dəyişiləcəkdir.

CM-nin 14-cü maddəsində əməlin obyektiv və subyektiv əlamətləri nəzərə alınmaqla ictimai təhlükəliliyin ümumiləşdirilmiş xarakteristikası verilmişdir. Burada ictimai təhlükəlilik cinayətin başqa növ hüquq pozuntularına nisbətdə daha yüksək təhlükə törətməsi mənasında işlədilmişdir. Əməlin ictimai təhlükəliliyinə cinayət tərkibinin bütün əlamətləri təsir göstərir. Lakin əməlin qəsd etdiyi ictimai münasibətlərin onun bu xassəsinə təsiri daha mühümdür. Cinayət qanunvericiliyi cinayətin ictimai təhlükəliliyinin kəmiyyət və keyfiyyət tərəfini fərqləndirir. CM-nin bir sıra maddələrində ictimai təhlükəliliyin xarakteri və dərəcəsinin nəzərə alınmasına dair birbaşa göstərişlər mövcuddur (8, 15.1, 58.3, 70.2 və s. maddələr).

Bütün başqa şərtlər eyni olduqda, cinayətlər digər növ qanun pozuntularından əməlin ictimai təhlükəlilik dərəcəsinə görə fərqlənirlər. Cinayətlər bir-birindən də ictimai təhlükəliliyin xarakteri və dərəcəsinə görə fərqlənirlər. «Xarakter» yunan mənşəli söz olub «xasiyyət» mənasını verir. «Xasiyyət» isə ərəb mənşəli söz olub insanın hərəkət və davranışlarında özünü göstərən əsas və ən sabit psixik xassələrin səciyyəvi xüsusiyyətlərinin məcmusu, təbiətində olan xüsusiyyət mənasını verir (2, 426, 429).

Cinayət hüququ üçün cinayət ilə yanaşı onu törətmiş şəxsin psixoloji cəhətləri – birgə uzlaşma halında şəxsiyyətin yönəlişini və xarakterini yaradan sabit, daimi xüsusiyyətləri də maraq doğurur. Şəxsiyyətin yönəlişi insanın nəyə cəhd etdiyini, onun tələbatlarının məzmununu və səviyyəsini, mənafelərinin xarakterini, dünyagörüşünü və inamını müəyyən edir. Xarakter – həyati təsirlər altında insan davranışının formalaşmış obrazıdır (9, 206). Cinayət əməli törətmiş şəxsin xarakterində antiictimai davranışını şərtləndirən mənfi baxışlar və münasibətlər mövcud olur. Onların ictimai təhlükəliliyinin müəyyən edilməsi üçün şəxsiyyətlərini xarakterizə edən digər xüsusiyyətlərlə birlikdə ictimai dəyərlərə, törətmiş olduqları cinayət əməllərinə, onların xarakterinə münasibətinin aydınlaşdırılması zəruridir. Başqa sözlə,

təqsirkarın həyata keçirdiyi çoxsaylı sosial rollar içərisində cinayətin hansı yerdə dayandığını müəyyən etmək lazımdır. Məsələn, hər hansı ictimai faydalı əməklə məşğul olmayan şəxs özünün sosial dəyərini, həyatda yerini itirmiş olur.

İctimai təhlükəliliyin xarakteri əməlin qəsd etdiyi ictimai münasibətlərin xarakteri ilə müəyyən edilir və cinayətin bu xassəsinin keyfiyyət göstəricisi sayılır (3, 38). Başqa sözlə, ictimai təhlükəliliyin xarakteri cinayətin keyfiyyət xüsusiyyətini müəyyən edir. CM-nin 58-ci maddəsinə əsasən cəza təyin edilərkən nəzərə alınan hallardan biri cinayətin xarakteridir. Cinayətin xarakteri dedikdə, ayrıca cinayətə deyil, eyni növdən olan bütün cinayətlərə xas olan təhlükəlilik başa düşülür. Bu, cinayətin qəsd etdiyi ictimai münasibətlərin məzmunundan, vurduğu zərərin (maddi, fiziki və ya mənəvi) xarakterindən, qəsdin üsulunun spesifikliyindən (zorakılıqla törədilməsi və ya əksinə), təqsirin formasından (qəsd və ya ehtiyatsızlıq), cinayətin motiv və məqsədinin məzmunundan asılıdır.

Cinayətin ictimai təhlükəlilik dərəcəsi isə törədilmiş konkret cinayətə xasdır. «Dərəcə» ərəb mənşəli söz olub, bir şeyin müqayisəli kəmiyyəti, səviyyəsi mənasını verir. Bir sıra sözlərə qoşulduqda, həmin sözlə ifadə edilən şeyin həddini, qədərini, əhəmiyyətini bildirir (1, 592). İctimai təhlükəlilik dərəcəsi – eyni xarakterli ictimai təhlükəli əməllərin birinin digərinə nisbətini, daha artıq təhlükəli olmasını göstərən kəmiyyət ifadəsidir.

Cinayətin ictimai təhlükəlilik dərəcəsi cinayət tərkibinin əlamətlərinə aid olan, bəzən də onun çərçivəsindən kənarda qalan müxtəlif amillərdən: həm obyektiv, həm də subyektiv amillərdən asılıdır. Obyektiv amillərə cinayətin törədilmə yeri, şəraiti, vaxtı, üsulu, nəticəsi, ziyanın həcmi aiddir. Cinayətin törədilmə mərhələləri və cinayətdə iştirakçılıq da cinayətin ictimai təhlükəlilik dərəcəsini müəyyən edən obyektiv amillərə aid edilməlidir. Başa çatmayan cinayətə görə təyin edilən cəzanın fərdiləşdirilməsini müəyyən edən amillərə cinayət niyyətinin həyata keçirilməsi dərəcəsi (cinayətə hazırlıq və cinayətə cəhd), habelə cinayətin başa çatdırılmamasına səbəb olan hallar aiddir. Digər hallar da, məsələn, cinayətin əvvəlcədən planlaşdırılıb planlaşdırılmaması, hazırlıq işlərinin görülüb-görülməməsi (cinayətin törədilməsi üçün alət və vasitələrin seçilməsi, cinayətin izlərinin gizlədilməsi üçün əvvəlcədən tədbirlərin görülməsi) və ya hər hansı hazırlıq görülmədən cinayətin törədilməsi halları da az əhəmiyyət kəsb etmir. Bütün digər hallar bərabər olduqda bir neçə şəxs tərəfindən iştirakçılıqla törədilən cinayətlərin ümumən təkbaşına törədilmiş cinayətlərdən daha ictimai təhlükəli olması qəbul olunmuşdur.

Eyni ilə cinayət törətmiş bütün şəxslər ictimai təhlükəliliyə malik olsalar da, şəxsiyyətlərinin antiictimai meylliliyinin məzmunundan, dərinliyindən və qətiliyindən asılı olaraq ictimai təhlükəlilik dərəcələri müxtəlif olur. Antiictimai meyllilik dəyişilməz deyildir, müvafiq halların: baxışların, mənafelərin, tələbatların, hisslərin, xarakterlərin təsiri altında dəyişir. Bunu nəzərə almadan cinayətin səbəblərini və qarşısının alınması tədbirlərini müəyyən etmək mümkün deyildir.

Qəsdən və ya ehtiyatsızlıqdan, hadisələrin təsadüfi axarı zəminində cinayət törətmiş şəxsləri, habelə antiictimai meylli şəxslər tərəfindən cinayətin törədilməsi hallarını fərqləndirmək lazımdır. Ehtiyatsızlıqdan cinayət törətmiş şəxslərdə antisosial istiqamət olmur, onlar adətən ictimai mənafelərə, vəzifələrə kifayət qədər məsuliyyətli yanaşmamaları

ilə xarakterizə olunurlar.

Cinayət törədən şəxslərin ictimai təhlükəlilik dərəcələri dəyişən kateqoriyadır. Cinayət törətmiş şəxs islah olunduqca, onun təhlükəliliyi azalır, yeni cinayətlər törətdikdə isə təhlükəliliyi artmış olur. 1960-cı il CM-də cinayət etmiş şəxsin özünün qüsursuz davranışı və əməyə namuslu münasibəti sayəsində ictimai təhlükəli şəxs olmaması yəqin edildikdə, cəzadan azad edilməsi nəzərdə tutulmuşdu (46-cı maddə). Oxşar məzmunlu müddəalar müəyyən dərəcədə başqa redaktədə yeni cinayət qanununda da göstərilir.

Qeyd etmək lazımdır ki, cinayət qanunu məhkəmələrdən təqsirkar şəxsə cəza təyin edərkən cinayətin ictimai təhlükəlilik dərəcəsini nəzərə almağı tövsiyə etsə də, onun mahiyyətinin nədən ibarət olmasını açmamışdır. Fikrimizcə, cinayət əməlinin ictimai təhlükəlilik dərəcəsinin xarakterizə edilməsində aşağıda göstərilən hallar mühüm əhəmiyyət kəsb edir:

1) əməlin subyektiv cəhəti;
2) cinayət tərkibinin tövsifedici əlamətləri;
3) cinayətkar niyyətin həyata keçirilmə dərəcəsi;
4) şəxsin cinayətdə iştirakı forması;
5) cinayətin törədilmə vaxtı, yeri və üsulu;
6) yetirilən zərərin növü və ölçüləri və ya nəticənin ağırlığı;
7) cinayətin törədilməsi zamanı və ya ondan sonra təqsirkarın davranışı və s.

Bu siyahı qəti deyildir. Çünki hər bir cinayət özünə məxsus cəhətlərə malik olan sosial hadisədir. Məhkəmə cəza təyin edərkən cinayətkar davranışın ictimai təhlükəlilik dərəcəsini və xarakterini tam aydınlaşdırmaq üçün bütün halları, hətta onun kiçik detallarını da nəzərə almalıdır.

Qanunvericilikdə ictimai təhlükəlilik əlaməti mövcud olmadığına görə cinayət sayılmayan az əhəmiyyətli əməli xarakterizə edən iki meyar müəyyən edilmişdir: 1) CM-nin Xüsusi hissəsində nəzərdə tutulan cinayət tərkibinin əlamətlərinin formal olaraq az əhəmiyyətli sayılan əməldə mövcud olması; 2) ictimai təhlükəlilik əlaməti mövcud olmadığı üçün belə əməlin şəxsiyyətə, cəmiyyətə və yaxud dövlətə zərər yetirə bilməməsi. Törədilmiş əməlin az əhəmiyyətli sayılması təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının səlahiyyətinə aiddir. Baş vermiş əməldə az əhəmiyyətlilik əlaməti aşkar edildikdə cinayət işi başlanılmır, başlanılmış cinayət işi isə əməldə cinayət tərkibi olmadığına görə xitam edilir (CM-nin 14.2, CPM-nin 39.1.2-ci maddələri). Əməlin az əhəmiyyətli sayılmasını yalnız onda təzahür edən əlamətlər şərtləndirə bilər (cinayətin törədilmə üsulu, cinayətin motiv və məqsədi, başa çatdırılma səviyyəsi və s.). Digər hallar (səmimi peşmançılıq, vurulmuş ziyanın könüllü ödənilməsi, təqsirkar şəxsin ailə vəziyyəti, həyat tərzi və s.) əməl cinayət kimi qiymətləndirilərkən nəzərə alına bilməzlər (3, 39).

Qanunverici maddi tərkibli cinayətləri qurarkən onların konstruksiyasına cinayətin obyektiv cəhətinin elementlərindən hərəkətlə (hərəkətsizliklə) yanaşı, ictimai təhlükəli nəticəni də xarakterizə edən əlaməti daxil edir. Başqa sözlə, hərəkətlə (hərəkətsizliklə) bərabər ictimai təhlükəli nəticə zəruri əlamət kimi belə tərkiblərdə nəzərdə tutulur. Bununla yanaşı, cinayətin obyektiv cəhətinin digər elementlərini, məsələn, zamanı, məkanı, cinayətin edilmə üsulunu, cinayətin baş verdiyi şəraiti xarakterizə edən əlamətlər də maddi

tərkiblərə daxil edilə bilər.

Cinayət qanununun Xüsusi hissəsinin xeyli normaları maddi quruluşa malikdir. Maddi quruluşa malik olan tərkiblərdə cinayətin başa çatması üçün tctimai təhlükəli əməlin edilməsi ilə yanaşı, həm də qanunda göstərilən ictimai təhlükəli nəticə baş verməlidir. Belə tərkiblər üzrə məsuliyyətin həllində əməl (hərəkət və ya hərəkətsizlik) ilə, baş vermiş ictimai təhlükəli nəticə arasında səbəblə əlaqənin olub olmaması aydınlaşdırılır. Buna görə də, əməl (hərəkət və ya hərəkətsizlik) törədilsə də, əgər nəticə baş verməmişdirsə, yaxud da nəticə baş versə də, əməl ilə nəticə arasında səbəbli əlaqə yoxdursa, məsuliyyət yaranmır.

Formal tərkiblərə cinayətin obyektiv cəhətinin elementlərindən ancaq hərəkəti, yaxud da hərəkətsizliyi xarakterizə edən əlamətlər daxil edilir. Belə quruluşa malik olan cinayət tərkiblərində göstərilən cinayətin bitmə anı normada törədilməsi qadağan edilən əməlin törədildiyi an sayılır. Formal tərkibi nəzərdə tutan normaya CM-nin 321.1-ci maddəsini misal göstərmək olar. Həmin maddədə göstərilir: «Qanuni əsas olmadan hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırma». Qanunverici burada «boyun qaçırma»da ifadə olunan hərəkətsizliyi maddənin dispozisiyasına daxil etmiş və bununla da əməlin kriminallığını müəyyən etmişdir. Həmin maddəyə əsasən məsuliyyətin yaranması üçün həqiqi hərbi qulluq keçmək üçün çağırış vərəqəsi almış şəxsin çağırış vərəqəsində göstərilən vaxtda çağırış yerinə gəlməməsi ilə cinayət başa çatmış sayılır. Belə tərkiblərə əsasən məsuliyyətin həllində ancaq dispozisiyada göstərilən əməl (hərəkət və ya hərəkətsizlik) müəyyən edilir, nəticə tərkibdən kənarda qaldığı üçün onun müəyyən edilməsinə ehtiyac qalmır.

Qanunla bir sıra cinayətlərin zəruri tərkib əlaməti qismində vurulmuş ziyanın əhəmiyyətli, külli və ya xüsusilə külli miqdarda olması tələb olunur. Belə hallarda vurulmuş faktiki ziyan əhəmiyyətli, külli və ya xüsusilə külli miqdarda olmadıqda, törədilmiş əməl formal cəhətdən də Məcəllədə nəzərdə tutulan cinayət tərkibini yaratmır.

Qanunvericilik bir sıra cinayətlərin yüksək ictimai təhlükəliliyini nəzərə alaraq onların bitmə anını cinayətə hazırlıq və ya cəhd mərhələsinə çəkir. Cinayət hüququ nəzəriyyəsində belə quruluşlu tərkiblər kəsik tərkiblər adlandırılır. Kəsik tərkiblərə misal olaraq quldurluq (CM-nin 181-ci maddəsi), banditizm (CM-nin 217-ci maddəsi), cinayətkar birlik (təşkilat) yaratma (CM-nin 218-ci maddəsi) əməllərini göstərmək olar.

F.Y.Səməndərov cinayətin elementlərini səciyyələndirmə üsuluna görə, yaxud tərkib əlamətləri quruluşunun xarakterinə görə cinayət tərkiblərinin üç növünü fərqləndirmişdir: a) sadə, b) mürəkkəb, c) alternativ (6, 137). Bunlar bir-birindən strukturuna görə fərqlənir. Sadə cinayət tərkiblərində bütün elementlər tək halda təzahür edir: cinayətin bir obyekti, bir ictimai təhlükəli nəticəsi, təqsirin bir forması, bir ümumi subyekti mövcud olur. Məsələn, CM-nin 120.1-ci maddəsində nəzərdə tutulan qəsdən adam öldürmə əməli və ya CM-nin 177.1-ci maddəsində nəzərdə tutulan oğurluq əməli və s.

Mürəkkəb cinayətlərdə isə bu və ya digər tərkib elementinin sayı çox olur. N.S.Taqantsev bu cinayətləri «cinayət əməllərinin mürəkkəb forması» adlandırmışdı (12, 1672). M.İ.Bajanov isə «mürəkkəb cinayətlər» terminini təklif etmişdir (7, 13). Mürəkkəb cinayət tərkibləri daha artıq informasiya «yükü» daşıyan əlamətləri nəzərdə

tutur. Belə əlamətlərin köməyi ilə mürəkkəb cinayət tərkibləri adətən iki obyekti, iki və ya daha artıq hərəkəti, bir-biri ilə bağlı olan nəticəni, təqsirin qarışıq formasını nəzərdə tutur (6, 137).

Məsələn, özgənin əmlakını ələ keçirmə məqsədi ilə hücuma məruz qalmış şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli zorakılıqla və ya belə zorakılıq tətbiq ediləcəyi hədəsi ilə bağlı olan basqında ifadə olunan quldurluq əməli (CM-nin 181-ci maddəsi) eyni vaxtda iki obyektə: həm mülkiyyətə, həm də şəxsiyyətin həyat və ya sağlamlığının təhlükəsizliyi ilə bağlı münasibətlərə qəsd edir. Yaxud həkim tərəfindən tibb müəssisələrindən kənarda edilmiş abortun ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olmasına görə məsuliyyət nəzərdə tutan qanunsuz abort etmə əməli (CM-nin 141.4-cü maddəsi) iki nəticəni: həm tibb müəsssiələrindən kənarda abortun edilməsini, həm də zərərçəkmiş şəxsin ölümünü nəzərdə tutur. Bu əməldə həmçinin mürəkkəb cinayəti xarakterizə edən digər əlamət – təqsirin qarışıq forması mövcuddur. Tibb müəssisələrindən kənarda abort edilməyə münasibət təqsirin qəsd formasını, ölümdən ibarət olan ikinci nəticəyə isə psixi münasibət təqsirin ehtiyatsızlıq formasını nəzərdə tutur. Ölümə səbəb olan qəsdən bədənə ağır xəsarət yetirməyə görə məsuliyyət müəyyən edən CM-nin 126.3-cü maddəsi də təqsirin qarışıq formasını nəzərdə tutur.

İki hərəkəti nəzərdə tutan mürəkkəb cinayətlər obyektiv cəhəti müəyyən mürəkkəbliklərlə səciyyələnən cinayətlərlə bağlıdır. Belə cinayətlərin bitməsi üçün hər iki hərəkətin törədilməsi tələb olunur. Məsələn, zorlama cinayətinin (CM-nin 149-cu maddəsi) törədilməsi adətən iki qrup hərəkətlə – zərərçəkənin müqavimətini qırmaq üçün zor tətbiq edilməsi və zərərçəkənlə cinsi əlaqədə olma ilə bağlı olur.

F.Y.Səməndərov mürəkkəb cinayətlərin bir növü kimi alternativ tərkibləri fərqləndirmişdir. Müəllifə görə alternativ cinayət tərkiblərini nəzərdə tutan normaların dispozisiyalarında eyni hüquqlu iki və ya daha artıq kriminal əməllər göstərilir. Dispozisiyada göstərilən hərəkətlərdən birinin törədilməsi məsuliyyətin yaranması üçün əsas olur (6, s. 138). Məsələn, CM-nin 144-1-ci maddəsində insan alveri üstündə məsuliyyət nəzərdə tutulmuşdur. Həmin cinayətə görə məsuliyyətin yaranması üçün tərkibin başqa əlamətləri ilə yanaşı dispozisiyada göstərilən hərəkətlərdən birinin törədilməsi kifayətdir.

Tədqiqatçılar mürəkkəb cinayətlərin dairəsini eyni cür qeyddə göstərmirlər. Lakin ümumən CM-də bu növ cinayətlərin sayı 30-50 arasında olduğu bildirilir (8, 156-159). N.İ.Kuznetsova mürəkkəb cinayətlərin dairəsinə aşağıdakıları aid etmişdir: mürəkkəb tərkibli cinayətlər (cinayət vasitəsi ilə törədilən cinayətlər); ikinci daha ağır nəticə ilə tövsif edilən cinayətlər; iki obyektli cinayətlər; alternativ elementli cinayətlər; qarışıq cinayətlər; uzanan və davam edən cinayətlər; terrorçuluq və ekstremist istiqamətli cinayətlər (10, 279).

Cinayət əməlini əhatə həcminə görə tərkiblər ümumi və xüsusi tərkiblərə ayrılır. Ümumi tərkib cinayət əməlinin bir növünün müxtəlif formalarını əhatə edən ümumiləşdirilmiş xarakteristikasını əks etdirir. Məsələn, CM-nin vəzifə səlahiyyətlərindən sui-istifadə etməyə görə məsuliyyət müəyyən edən 308.1-ci maddəsinin obyektiv cəhəti «vəzifəli şəxsin öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsini» nəzərdə tutur. Aydındır ki, belə ümumi formul kifayət qədər geniş hərəkətlərin dairəsini əhatə edir.

CM-nin bu fəslində həmçinin vəzifə saxtakarlığı əməli (maddə 313) nəzərdə tutulmuşdur. Bu maddədə də vəzifəli şəxs tərəfindən rəsmi

sənədlərə bilə-bilə yalan məlumatların daxil edilməsi, habelə göstərilən sənədlərdə onların həqiqi məzmununu təhrif edən düzəlişlərin edilməsi üstündə məsuliyyət müəyyən edilmişdir. Aydındır кi, vəzifəli şəxs tərəfindən törədilən bu hərəкətlər qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etmənin növ müxtəlifliyi sayılır və CM-nin 308-ci maddəsinin təsiri altına düşür. Qəbul olunmuş ümumi qaydaya əsasən isə ümumi tərкiblə müqayisədə dar məzmuna maliк xüsusi tərкib mövcud olduqda, xüsusi tərкibi təsbit edən cinayət-hüquqi norma tətbiq edilməlidir.

Bir sıra ümumi əlamətlərə maliк olan tərкiblər qarışıq tərкiblər adlanır. Məhкəmə təcrübəsində qarışıq tərкiblər bir çox hallarda bir-birindən çətin fərqləndirilir. Belə кi, bəzən qarışıq tərкiblər bir-birindən yalnız bir əlamətə görə fərqlənir və конкret hallarda həmin əlaməti müəyyən etməк heç də asan olmur. Məsələn, ehtiyatsızlıqdan zərərçəкmiş şəxsin ölümünə səbəb olmuş qəsdən sağlamlığa ağır zərər vurma əməlini (CM-nin 126.3-cü maddəsi) həm qəsdən adam öldürmə (CM-nin 120-ci maddləsi), həm də ehtiyatsızlıqdan adam öldürmə (CM-nin 124-cü maddəsi) əməllərindən fərqləndirməк lazım gəlir. Qarışıq tərкibli cinayətlərin düzgün tövsifi üçün müvafiq tərкiblərin bütün əlamətlərini təhlil etməк, məzmununu aydınlaşdırmaq, qanunverici tərəfindən istifadə olunmuş terminlərin, anlayışların düzgün təfsirini bilməк lazımdır.

Məsələn, qəsdən adam öldürmə əməlinin (CM-nin 120-ci maddəsi) terror aкtından (CM-nin 277-ci maddəsi) fərqləndirilməsi zamanı əsas diqqət bu cinayətlərin subyeкtiv cəhətinə yetirilməlidir. Çünкi bu cinayətlərin obyeкtiv əlamətləri конкret hallarda deməк olar кi, tamamilə üst-üstə düşə bilər. Dövlət xadimi və ya ictimai xadim, habelə xarici dövlət nümayəndəsi həm terror aкtında, həm qəsdən adam öldürmə əməlində zərərçəкmiş ola bilər; hər iкi cinayətdə subyeкtə qarşı irəli sürülən tələblər eynidir; subyeкtiv cəhətdən hər iкi cinayət qəsd ilə törədilir.

Fərq yalnız cinayəti törədən şəxsin izlədiyi məqsəddə, əməlin motivasiyasında ifadə olunur. Belə кi, qanunda terror aкtı dövlət xadiminin və ya ictimai xadimin, habelə xarici dövlət nümayəndəsinin xidməti və ya siyasi fəaliyyətinə son qoymaq və ya bu fəaliyyətə görə qisas almaq məqsədi ilə onun həyatına sui-qəsd etmə кimi müəyyən edilmişdir. Deməli, bu cinayətin əsas fərqləndirici əlaməti onun məqsədi sayılır. Əgər dövlət xadimi və ya ictimai xadim, habelə xarici dövlət nümayəndəsi qısqanclıq zəminində öldürülmüşsə, əməl terror aкtı кimi deyil, qəsdən adam öldürmə кimi tövsif olunmalıdır. Qarışıq tərкibli əməlin qiymətləndirilməsi zamanı fərqləndirici əlamətləri dəqiq müəyyən etməк mümкün olmursa, onda əməl CM-nin bir-birinə nisbətdə daha az ciddi məsuliyyət nəzərdə tutan norması ilə tövsif olunmalıdır. Çünкi prosessual qanun bütün şübhələrin təqsirləndirilən şəxsin xeyrinə həll edilməsini nəzərdə tutur (CPM-nin 145.3-cü maddəsi).

## ƏDƏBİYYAT

1. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə, I c., Baкı: Şərq-Qərb, 2006, 744 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, II c., Baкı: Şərq-Qərb, 2006, 792 s.
3. Azərbaycan Respubliкasının Cinayət Məcəlləsinin Kommentariyası / h.e.d., prof. F.Y.Səməndərovun redaкtəsi ilə. Baкı: Diqesta, 2001, 950 s.
4. Əliyev N.K. Cinayət məsuliyyətinin differensiasiyasında yüngülləşdirici və ağırlaşdırıcı halların rolu // Baкı Universitetinin Xəbərləri. Sosial-siyasi

elmlər seriyası, 2007, №2, s. 22-30.
5. Səməndərov F.Y. Cinayət hüququ (Cinayət və cəza məsələləri): Dərs vəsaiti. Bакı: BDU, 1994, 384 s.
6. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə: Ali məкtəblər üçün dərsliк. Baкı: Diqesta, 2007, 697 s.
7. Бажанов М.И. Множественность преступлений по уголовному праву Украины. Харьков: Вища школа, 2000, 162 с.
8. Зинченко И.А. Составные преступления. Харьков: Вища школа, 2005, 185 с.
9. Ковалев А. Г. Психология личности. ЛГПИ им. А.И.Герцена, М.: Юрид. лит., 1968, 276 с.
10. Кузнецова Н.Ф. Проблемы квалификации преступлений: Лекции по спецкурсу «Основы квалификации преступлений» / Науч. ред. и. предисл. академика В.Н.Кудрявцева. М.: Издательский Дом «Городец». 2007, 336 с.
11. Курс уголовного права. Общая часть: Учебник для вузов. / Под ред. доктора юридических наук, профессора Н.Ф.Кузнецовой и кандидата юридических наук, доцента И.М.Тяжковой. М.: ИКД «Зерцало – М», 2002, 624 с.
12. Таганцев Н.С. Лекции по русскому уголовному праву. СПб.: 1892, 815 с.

## ВИДЫ СОСТАВОВ ПРЕСТУПЛЕНИЙ

**Р.А.ГАСЫМЗАДЕ**

### РЕЗЮМЕ

Классификация составов преступления строится по различным основаниям. При определении степени опасности конкретного вида преступления различают: основные составы, составы со смягчающими и отягчающими обстоятельствами или квалифицированные составы. Составы преступлений можно различать и по их конструкции: простые и сложные. По объему охвата преступного деяния составы делятся на общие и специальные.

## TYPES OF COMPONENTS OF CRIME

**R.A.GASIMZADE**

### SUMMARY

Components of crime are classified upon different basis: public safety of the crime, character of the crime as well as the structure of the components. According to their construction the components of crime may be: simple and heavy. Common and special components of crime are classified for the volume of the crime.